## *YENİ NƏŞRLƏR*

UOT 37.

# DÜNYA KOMENSKİŞÜNASLARINA YENİ TÖHFƏ

Məlum həqiqətdir ki, son 200 il ərzində Azərbaycan ziyalılarının qabaqcıl dəstəsi qocaman Şərq ilə bərabər, rus və dünya mütəfəkkirlərinin zəngin elmi-pedaqoji irsindən faydalanmağı daim diqqət mərkəzində saxlamışlar. Onlar görkəmli pedaqoqların pedaqoji ideyalarını öyrənməyi, onların fəaliyyətində və baxışlarındakı xeyirli cəhətləri götürməyi tövsiyə etmişlər. Bunlardan biri də elmə yeni qədəm qoyan gənc tədqiqatçılardan Mehriban Şirzadovadır. Onun bu günlərdə "Elm və təhsil" nəşriyyatı tərəfindən nəşr edilən "Y.A. Komenskinin "Ana qucağı məktəbi" əsəri və onun əsas ideyalarının Azərbaycanda yayılması" adlı əsəridir. 174 səhifədən ibarət olan bu əsər Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi Şurasının qərarı ilə çap edilmişdir. Əsərdə göstərilir ki, xalqımızın unudulmaz oğlu N. Nərimanov Qafqaz Müsəlman müəllimlərinin 1906-cı ildə keçirilmiş birinci qurultayı ərəfəsində yazdığı məqalələrindən birində klassik pedaqogikanın Y.A. Komenski, J.J. Russo, İ.H. Pestalotsi, K.D. Uşinski kimi məşhur pedaqoqlarının fikirlərini öyrənməyi lazım bilirdi. O, yazırdı: "Bir müəllim müəllimliyə hazırlaşarkən ola bilərmi ki, Henrix Pestalotsinin adını eşitməsin? Ola bilərmi ki, bunun uşaqlara olan məhəbbətini bilməsin. Təlim və tədrisə dair nəsihətlərini oxumasın?".

N. Nərimanov Pestalotsini bir də ona görə yüksək qiymətləndirirdi ki, Pestalotsi təlim və tərbiyə işlərində uşaqlara şəfqət və məhəbbəti hər şeydən üstün tuturdu. N. Nərimanovun bu fikirləri, həmçinin elmi pedaqogikanın banisi olan böyük Çex pedaqoqu Yan Amos Komenskiyə də aiddir. Dünyanın qabaqcıl xalqları son 400 ildir ki, bu böyük şəxsiyyətin pedaqoji irsini yüksək qiymətləndirir və ondan faydalanır.

Məlum olduğu kimi, Ümumdünya Sülh Şurasının qərarı ilə 1956-1958-ci illərdə Çexoslovakiya Respublikasının Komenskinin əsərlərinin ilk külliyyatının nəşr edilməsinin 300 illiyinə həsr edilmiş yubiley tədbiri bütün dünyada əks-səda doğulmuşdur. 1992-ci ildə YUNESKO-nun qərarı ilə Komenskinin anadan olmasının 400 illiyinə həsr edilmiş silsilə tədbirlər onun ideyalarının zəmanəmiz üçün də əhəmiyyətli olmasından xəbər verir.

Mehriban Şirzadovanın fikrincə Komenski tarixdə "Böyük didaktika", "Pansofiya", "Real aləm şəkillərdə" əsərləri ilə bərabər, həm də 1628-ci ildə yazdığı "Ana qucağı məktəbi" kimi əsəri ilə şöhrət qazanmışdır.

Y.A. Komenskinin pedaqoji ideyaları Azərbaycanda XIX əsrin sonlarından etibarən yayılmağa başlamışdır. Bu işdə Qori Müəllimlər Seminariyasının tanınmış məzunlarından Teymur bəy Bayraməlibəyov ilə N. Nərimanovun xidmətləri diqqətə layiqdir. M. Şirzadovanın yazdığı bu əsərlə tanışlıqdan məlum olur ki, Azərbaycan oxucuları Komenskinin pedaqoji ideyaları ilə keçən əsrin ortalarından başlayaraq tanış olmuşlar.

İlk dəfə olaraq 1941-ci ildə onun "Didaktik prinsiplər" əsəri ana dilimizdə çap olunmuşdur. Bu əsərdə prof. B.B. Komarovskinin "Y.A. Komenskinin pedaqoji göstərişləri" adlı məqaləsi də çap olunmuşdur. Bu işdə professorlardan A.İ. Kərimov ilə M.Ə. Muradxanovun təşəbbüsü və fəaliyyətləri qeyd edilməlidir. Oxucular Y.A. Komenskinin ideyalarından onların tərcüməsində 1961-ci ildə çap edilmiş "Seçilmiş pedaqoji əsərlər"indən bəhrələnmişlər. Sonralar Komenskinin elmi-pedaqoji ideyaları ilə yanaşı, onun haqqında söhbət etdiyimiz "Ana qucağı məktəbi"nin əsas ideyaları Azərbaycan alimlərindən Ə.Y. Seyidov, Y.R. Talıbov, T.M. Əfəndiyev, Ə.M. Tağıyev və son vaxtlar H.M. Əhmədov ilə F.A. Rüstəmov və başqalarının məqalələri ilə yayılmışdır.

"Ana qucağı məktəbi" məktəbəqədər yaşlı uşaqların tərbiyəsinə həsr edilmiş, dünyada bu sahədə yazılan ilk əsərdir.

Mehriban Şirzadovanın əsərində Y.A. Komenskinin əsas ideyaları şərh edilir.

"Ana qucağı və ya gənclərə ilk altı yaşlarda qayğıkeş tərbiyə haqqında" adlanan 12 fəsil-

dən və adlar göstəricisindən ibarət olan bu əsərin I fəslində deyilir: "Uşaqlar Allah taala tərəfindən bəxş edilmiş elə ləl-cəvahiratdır ki, o, heç bir xəzinə ilə müqayisə edilə bilməz. Allahın uşaq bəxş etdiyi insanlar ən xoşbəxt insanlardır".

Komenski yazırdı ki, qızıl –gümüş o qədər də etibarlı deyil, onlar tezliklə tələf olandır. Uşaqlar isə əbədi irsdir. Qızıl-gümüş torpağın altından əmələ gəlmişdirsə, uşaqlar bizim özümüzün varlığımızdandır. Kimin evində uşaq varsa, elə bilsin ki, onun evində səma mələkləri var. Bütün bunlara görədir ki, valideynlər və tərbiyəçilər uşaqların düzgün tərbiyəsindən zövq almalıdırlar.

Komenski uşağı süddən tez kəsən ananı ana deyil, analıq- ögey ana adlandırır və s. və i.a. Bu kitabda M. Şirzadovanın Komenskinin ümumi pedaqoji fikirlərindən, həmçinin "Ana qucağı məktəbi"nin əsas ideyalarından seçib əsərə daxil etməsi onu daha oxunaqlı edir. Onlardan bir neçəsinə diqqət yetirək:

"Dünyaya gələn bütün insanlar yalnız bir əsas məqsədlə yaranmışlar. İnsan olmaq, gələcək həyata ləyaqətlə hazırlaşmaq"; "Müəllim şagirdə təhsil verməzdən əvvəl onda təhsilə maraq, səy oyatmalıdır. "Təhsil və elm nəticə etibarilə insanı müdrik etməlidir"; "Köksüz ağac boy atmadığı kimi, dinsiz də mənəviyyat boy verməz"; "Tərbiyəyə həm küt, həm də istedadlı adamların ehtiyacı var", "Ana qucağı məktəbində təmrinlər üçün faydalı ola bilən vəsait – şəkilli kitablardır"; "Uşaqlarda məktəb və müəllimə sevgi və etibar hisslərinin alışdırılması da valideynlərin vəzifələrindəndir" və s.

Mehriban xanımın Komenskinin bu əsərinin rus dilində olan son variantını M.F. Axundov kitabxanası vasitəsilə Moskvadan Mərkəzi Dövlət kitabxanasından gətizdirməsi onun bu mövzuya vurğunluğu ilə bağlıdır. Müəllif Komenskinin bu əsərdəki əsas ideyaların təkcə Azərbaycanda yazılması yollarını göstərməklə kifayətlənməmiş, bu kitabın rus dilində olan 2008-ci ildə nəşr edilən son variantını da kitaba daxil etməklə çox faydalı bir iş görmüşdür.

Müəllifin xidmətlərindən biri də bu kitabda, həmçinin Azərbaycan maarifçilərindən Səfərəlibəy Vəlibəyovun "Qüdrəti-Xuda" adlı kitabçasında və S.M. Qənizadənin "Körpə uşaqlar tərbiyəsi" adlı silsilə məqalələrində irəli sürülən bir çox fikirlərin Komenskinin fikirləri ilə üst-üstə düşdüyünü nəzərə alaraq, onlardan bəzi parçaları da oxuculara təqdim etməsidir.

Müəllifin bu kitabında körpə uşaqların ən isti məkanı olan Ana qucağına aid şəklin, həmçinin ananın (öz anasının, mərhum Səyalı xanımın) ilk övladının məktəbə yola salması şəklinin kitaba daxil etməsi də onun analara olan məhəbbətindən irəli gəlir. Müəllifin kitabın giriş hissəsində yazdığı epiqraf da oxucuda analara məhəbbət hissini gücləndirir.

Kitabın sonuna Azərbaycan alimlərinin Y.A. Komenski irsinə həsr edilmiş məqalələrindən edilmiş əlavələr də maraqla oxunur və böyük pedaqoqun pedaqoji irsinin Azərbaycanda yayılmasını əyani olaraq göstərir.

Gənc tədqiqataçı Mehriban Hüseyn qızı Şirzadovanın bu kitabına akademik Hüseyn Əhmədov yazdığı ön sözdə bu əsəri dünya Komenskişünaslığına töhfə adlandırır. Biz də bu fikirlə razıyıq və həqiqətən də bu əsər bu ada layiqdir.

Kitabın elmi redaktoru pedaqogika üzrə elmlər doktoru, professor, Əməkdar müəllim Yəhya Kərimovdur.

***Müseyib İlyasov***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin kafedra müdiri pedaqogika üzrə elmlər doktoru, professor,*
**Redaksiyaya daxil olub: 05.06.2018**